# İŞ YOLDAŞLARIMIZIN XATİRƏSİ

## TACƏDDİN FƏRHAD OĞLU QULİYEV



2005-ci ilin payızında amansız ölüm unudulmaz bir iş yoldaşımızı – Bakı Dövlət Universiteti Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri, tarix elmləri namizədi, dosent Tacəddin Fərhad oğlu Quliyevi sıralarımızdan apardı.

*Tacəddin Fərhad oğlu Quliyev 1929-cu il sentyabrın 25-də Goranboy rayonunun Zeyvə kəndində dünyaya göz açmışdı.*

*Böyük Vətən müharibəsi başlayan günə qədər kənddəki natamam orta məktəbdə təhsil almış, sonra isə kolxozda işləyə-işləyə 7-ci sinfi bitirmişdi. Bir müddət Goran dəmiryolunda fəhləlik etdikdən sonra Gəncədəki Pedaqoji Texnikumda təhsil almış, Goranboy rayonunda mədəni-maarif şöbəsində təlimatçı işləmişdi.*

*T.Quliyev 1949-cu ildə N.K.Krupskaya adına Bakı Kitabxanaçılıq Texnikumunda (indiki Bakı Mədəni-Maarif Texnikumu) orta ixtisas təhsilini başa vuraraq, Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olmuş və 1949-1954-cü illərdə burada ali təhsil almışdı. O, bir neçə il müxtəlif kitabxanalarda işlədikdən sonra 1954-cü ildə ali təhsilli gənc mütəxəssis kimi Bakı Kitabxanaçılıq Texnikumunda müəllim vəzifəsinə dəvət edilmişdi. Eyni zamanda 1958-*

*ci ildən Respublika Kitabxana Kollektorunun müdiri kimi səmərəli fəaliyyət göstərmişdi.*

*Artıq 1965-ci ildən BDU-nun Kitabxanaşünaslıq kafedrasının müəllimi olan gənc mütəxəssis cəmi bir neçə il sonra - 1969-cu ildə professor A.Xələfovun elmi rəhbərliyi ilə "Azərbaycanda Həmkarlar İttifaqı kitabxanalarının tarixi (1920-1941)" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdü.*

*1973-cü ildən 1986-cı ilin sonlarınadək Kitabxanaçılıq fakültəsində dekan müavini vəzifəsində böyük səy və enerji ilə çalışan dosent T.Quliyevin işgüzarlığı, prinsipiallığı, obyektivliyi, fakültənin o dövrdəki dekanı, professor A.Xələfovla birgə səmərəli fəaliyyəti bütövlükdə kadr hazırlığına müsbət təsir göstərmişdi.*

*1990-cı ildə dosent T.Quliyev BDU-da təzəcə yaradılmış Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri seçilmişdi. Ona göstərilmiş yüksək etimadı layiqincə doğruldan alim rəhbərlik etdiyi kafedranın fakültənin aparıcı qurumlarından birinə çevrilməsi, kitabxanaşünaslıq elminin inkişafına özünəməxsus töhfə verməsi sahəsində özünün bilik və bacarığını əsirgəmirdi.*

*Dosent T. Quliyev tanınmış kitabxanaşünas alim kimi dəfələrlə respublika və beynəlxalq miqyaslı elmi tədbirlərdə iştirak etmişdi.*

*Təxminən 50 il səmərəli elmi-pedaqoji fəaliyyətlə məşğul olan alimin qələmindən yüzdən çox elmi əsər, o cümlədən bir sıra dərslik, dərs vəsaiti, monoqrafiya və elmi məqalələr çıxmışdı. Bunlardan 2 cildlik "Azərbaycanda kitabxanaçılıq işi" adlı sanballı dərs vəsaiti ölkəmizdə Həmkarlar İttifaqı kitabxanalarının tarixini və bugünkü vəziyyətini çox geniş şəkildə əhatə edir.*

*Dosent T.Quliyev BDU-nun ictimai həyatında da fəal iştirak edir, ona tapşırılan işlərin öhdəsindən bacarıqla gəlirdi.*

*Tacəddin müəllim istedadlı alim olmaqla yanaşı, həm də sədaqətli dost, qayğıkeş yoldaş, gözəl ailə başçısı idi. Onun həyat şüarı xeyirxahlıq, səmimiyyət və insanpərvərlik idi. Belə nəcib insanın, səriştəli müəllimin, gözəl ailə başçısının, qayğıkeş babanın dünyadan vaxtsız köçməsi hamımızı qəlbən kədərləndirdi. Lakin onun yaxşı əməlləri, xeyirxah işləri həmişə qədirbilən insanların ürəyində yaşayacaq.*

*Qəbri nurla dolsun!*

BDU-nun Kitabxanaçılıq-informasiya
fakültəsinin kollektivi
«Kitabxanaşünaslıq və biblioqrafiya»
jurnalının redaksiya heyəti